**Fərdi yaşayış evləri üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı tələb olunan sənədlərin**

**S İ Y A H I S I**

1. Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı bölməsində qeyd edilən sənədlərdən biri və ya torpaq sahəsinə dair dövlət reyestrindən çıxarış və aşağıda qeyd edilən sənədlərdən biri:
2. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə minənədək (2013- cü il yanvarın 1-dək) inşa edilmiş tikililərə dair:
   - hündürlüyü 12 metrədək olan yaşayış evlərinə münasibətdə
   - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə və ya yaşayış evinin istismara qəbul aktı;
   - hündürlüyü 12 metrdən çox olan yaşayış evlərinə münasibətdə
   - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı, istismara qəbul aktı.
3. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə mindikdən (2013- cü il yanvarın 1-dən) sonra inşa edilən tikililərə dair:
   - tikintisinə icazə tələb olunan tikinti obyektləri üçün
   - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikintiyə icazə verilməsi barədə qərar, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti obyektinin istismarına icazə;
   - məlumatlandırma icraatının tətbiq edildiyi yaşayış evləri üçün
   - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikinti layihəsinin memarlıqplanlaşdırma bölməsi, sifarişçi tərəfindən tikinti başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanına məlumat verilməsini təsdiq edən sənəd;
4. Dövlət rüsumunun ödənilməsi barədə sənəd;
5. Ərizə.